DOI:10.30546/gdu.2023.362-365

**UOT:355.**

# GƏNCLƏRİN ÇAĞIRIŞAQƏDƏRKİ HAZIRLIĞINDA HƏRBİ FƏALİYYƏTİN STRUKTURUNUN ÖYRƏDİLMƏSİ

***Məmmədova Mahnur Qafar qızı, Əmiraslanov Sərxan Nail oğlu***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Hərbi psixologiyanın bütün zabit heyəti tərəfindən dərindən öyrənilməsi hər şeydən əvvəl zabitin işinin şəxsi heyətlə bağlı olduğundan irəli gəlir. Məlumdur ki, hərbi kollektivə rəhbərlik etmək, onların təlimi və tərbiyəsi həmin kollektivdə olan psixoloji faktorların hesaba alınması əsasında qurulur. Bu problemin geniş əhəmiyyəti vardır. Bu problem hərbi idarəçilik səviyyəsində olan komanda və şəxsi heyətlə iş üzrə zabitin cari fəaliyyəti ilə uyğunlaşdırılmışdır.*

**Açar sözlər:** hərbi psixologiya, şəxsi heyyət, fəaliyyətin strukturu, zabit heyyəti

**Ключевые слова:** военная психология, личный персонал, структура деятельности, офицерский состав

**Key words:** military psicoloqy, structure of activation, officer personal

Psixoloji faktorların uçotu əslində hərbi psixologiyanın və pedaqogikanın nailiyyətlərinin Silahlı Qüvvələrin hərbi xidmətində və fəaliyyətində bütövlüklə praktikada istifadəsi deməkdir. Komanda heyət və şəxsi heyətlə iş üzrə zabit heyəti üçün hərbi ixtisas üzrə təlim və tərbiyəsi, psixoloji faktorların uçotu dedikdə qəbul etdikləri qərarları və onların yerinə yetirilməsi üçün tətbiq edilən psixoloci üsulların əsaslandırılması konkretləşir.

Çağırrışçı gənclərə hərbi rəhbərliyin qəbul etdiyi bütün qərarlar və hərəkətləri bu və ya digər tərəfdən şəxsi heyətlə əlaqədar olduğu üçün psixoloji əsaslandırılmalıdır, əlbəttə ki, hər şeydən əvvəl bu tabeçiliyində olanlara rəhbərliklə, onların təlimi və tərbiyəsi işinə toxunduğuna görə. Bu mənada hərbi rəhbərin fəaliyyətində psixoloji faktorların uçotu aşağıdakıları nəzərdə tutulur:

- maksimal dərəjədə istifadə olunan psixoloci şərtlərin qəbulunun uçotu;
- qarşıdakı fəaliyyətə tabeçiliyində olanların hazır olmamasının uçotu;
- idarəetməyə yönəlmiş qərarlar yalnız maksimum texniki, hərbi və yaxud necə deyərlər «işgüzar» effektə deyil, həm də şəxsiyyətin və kollektivin müsbət irəliləyişin əldə edilməsinə yaxud, heç olmasa bir qayda olaraq bir işi nə vaxt ki, avral yolu ilə yəni «nəyin bahasına olursa olsun» yerinə yetirərkən baş verə biləjək əxlaqi-psixoloji halın aradan qaldırılmasına yönəldilməsidir;
- tabeçiliyində olanlara tapşırıq verərkən elə təsir vasitəsi seçməlidir ki, insanların fərdi xüsusiyyətlərini onların həmin zaman vəziyyətləri və fəaliyyət xarakterinə uyğun gəlsin;
- tabeçiliyində olanların daha effektli fəaliyyət göstərməyə, məsuliyyətlə və var gücü ilə tapşırığa əməl etməyə şövq edən zahiri (maddi, təşkilati) şəraitləri yaradılması.

Çağırışçı gənc hərbi kollektivin qarşısında duran tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsi üçün real şəraitdən maksimum effektikliklə istifadə edilməlidir. Əgər zabit qarşıda duran tapşırığın yerinə yetirilməsi ardıjıllığını, onun intensivliyinin dozasını müəyyən etmək imkanına malik olarsa qarşıda duran bu və ya digər tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsi üçün həmin şəraitdə tabeçiliyində olanların fəaliyyətinin düzgün istiqamətləndirilməsi, onların müəyyən işi mənimsəmələrinə kömək edər. Tərbiyə işində isə zabitin bu imkanı şəxsiyyətin vəya kollektivin xasiyyətində bu və ya digər irəliləyişə səbəb olə bilər.

Əlverişli psixoloji şəraitin nəzərə alınmaması, bu şəraitin düzgün qiymətləndirilməməsi nəticəsi ona gətirib çıxarır ki, nisbətən yüngül tapşırıqlar da çətinliklə

DOI:10.30546/gdu.2023.362-365

yerinə yetirilir. Əgər kollektivin və ya ayrıca tapşırıq alan fərdin marağı nəzərə alınarsa verilən tapşırığın həmin şəraitdə müvəffəqiyyətlə yerinə yetirilməsinə zəmin yaranmış olar. Müəyyən tapşırığın yerinə yetirilməsini öz intiusiasına görə asan hesab edən komandir səhv etdiyini bəzi hallarda başa düşə bilmir. Bu zaman həmin komandir həmin tapşırığın özü üçün asan olduğunu instiktiv olaraq düşünür və özünü həmin icraçının və ya icraçıların yerinə qoyur. Həmin komandirin səhvi də elə bundadır.

Kollektivin qarşıda duran fəaliyyətə hazır olmasını qiymətləndirmək üçün çağırışçılar aşağıdakı psixoloci faktorları nəzərə almalıdırlar:

- əsgərlərin əhval-ruhiyyəsinin xarakterini, onların qarşıda duran fəaliyyətlərinin xüsusiyyətlərini, tapşırıqların və icraçıların bölüşdürülməsi;
- kollektivin dinamik strukturunu, qarşılıqlı münasibət və qarşılıqlı əlaqədə mümkün ola bilən irəliləyişlərini;
- əlaqələrin qabiliyyət və fəallığının səviyyəsini, ruhi və fiziki güjlərini, bunların tərbiyəyə və qarşıda duran tapşırığın yerinə yetirilməsinə təsirini.

Bütün bu göstərilən bəndlər haqqında təsəvvürləri ümumiləşdirilməsi tabeçilikdə olanlar yeni tapşırığı nejə qarşılayajaqlarını, onlarda bu tapşırığa ilkin münasibətlərin nejə olajağını, tapşırığı yerinə yetirməyə enercilərini və jan atmalarını dəqiq hiss etmək olar. Bundan başqa, tapşırığın psixoloji analizini aparmaq lazımdır ki, həmin tapşırığın gələjək icraçılarında gözlənilən psixoloji yükün miqdarını və xarakterini müəyyən etmək mümkün olsun. Məlumdur ki, insanlara qoyulan tələblərə görə praktiki olaraq tapşırıqlar bir-birindən fərqlənir. Bəziləri ani hücum, həlledici həmlə, ruh yüksəkliyi sayəsində ani olaraq həll olunur, başqaları isə dözüm, inad, uzunmüddətli ağır kütlənin şüurunda qabaqjadan daha yüksək səviyyə yaradırlar.

Hərbi xidməti və döyüş fəaliyyətini müvafiq olaraq özünəməxsus psixoloci xüsusiyyəti olan müxtəlif tapşırıqların birləşməsi kimi təsəvvür olunur. Onlardan biri icraçılardan hissedici-mütəffəkir fəallığı, digərləri fiziki güc sərfini, üçüncüsünü onun yerinə yetirilməsi böyük emosional gərginlik tələb edir. Tapşırıqlar təhlükəli və təhlükəsiz, gərgin əmək tələb edən və nisbətən yüngül, sadə və mürəkkəb xarakterli olurlar. Onlardan bəziləri elə əvvəlcədən düzgün qarşılanır, məsul münasibət bəslənir, digərləri isə müəyyən daxili müqavimətlə, ürəksiz, inamsızlıqla qarşılanır.

Bütün bunlar rəhbərlik prosesi zamanı qabaqjadan, hələ qərar qəbul edilməmişdən qabaq müəyyənləşdirilməlidir. Bu analitik işlərin nətijəsində kollektiv istənilən tapşırığı yerinə yetirməyə hazır olan bir effekti əldə edir.

Qəbul olunan qərar və fəaliyyətlər bu mürəkkəb və nəcib işin yerinə yetirilməsi üçün psixoloji cəhətdən əsaslandırılmış tövsiyələri, daha doğrusu tapşırıq verməyin daha effektiv üsulların təyin edilməsi (təlim vaxtı tədris materiallarının şərhi metodikası, tərbiyəedici tələblərin qoyulması və s. tabeçiliyində olanların qəti və bacarıqlı fəaliyyətinə hazırlanmasına və həvəsləndirilməsinə yönəldilməlidir.

Aydın məsələdir ki, bu cür psixoloji zəmanətdən hər zabit, gizir və yaxud çavuş bacarmır. Bu və bir çox başqa praktiki məlumatlarla psixoloci metodların tətbiqi sahəsində kifayət qədər bilik və vərdişlərin olmasını ehtimal edir. Beləliklə psixologiyanın əsaslarının öyrənilməsi qoşunlara effektiv rəhbərlik etməyin başlıca şərtlərindəndir.

Psixoloji biliklər toplamağın müxtəlif yolları vardır. Onlardan ən əlverişlisi və bilavasitəsi hərbi psixologiyanın sistem halına gətirilmiş tədris kursunun istiqamətyönlü öyrənilməsidir. Başqa elmləri öyrənən zaman hərbi-psixoloji biliklərə əlavə olunan xırdaca hissəciklərə etinasızlıq göstərmək olmaz. Belə ki, həmin hissəciklərdən öz məqsədinə çatmaq üçün istifadə etməyi bacarmaq lazımdır. Psixoloji biliklərin toplanmasında hərbi memuarların, bədii ədəbiyyatın böyük əhəmiyyəti vardır. Bütün pərakəndə biliklərin toplusu

DOI:10.30546/gdu.2023.362-365

zabit mədəniyyətinin psixoloji yüksəlişində böyük rolu olar, əgər praktiki məsələlərin həlli üçün lazımi dərəcədə birləşdirilərsə, dərk edilsə və başa düşülsə. Bundan başqa, insanların dərketmə təcrübəsinin praktiki fərdi toplanması və onların davranış tərzinin qanunauyğunluqlarının bilavasitə onlarla ünsiyyət zamanı toplanır.

Gənclərin çağırışaqədərki hazırlığında Hərbi psixologiyanın istiqamətyönlü və sistemli surətdə öyrənilməsi, məlum olduğuna görə, bu elmə əlverişli motivlər əsasında ona düşünülmüş maraq, şəxsi heyətlə işləməyin forma və metodlarını təkmilləşdirməkdə onun imkanlarını başa düşməyə əsaslanır. Bir çox hərbi hissələrdə, birləşmələrdə və təhsil müəssisələrində hərbi psixologiyaya yüksək ictimai maraq mövcuddur.

Gündəlik həyata tətbiqi yolları öyrənilir. Komendanlıq və şəxsi heyətlə iş üzrə zabitlər hərbi-psixoloji bilikləri təbliğ edir və onların müntəzəm surətdə mənimsənilməsini təbliğ edirlər. Hərbi-psixoloji tədqiqatlar mümkün qədər mükafatlandırılır. Məsələn, təlim dərslərinin, məşqlərin effektliyinin artırılmasına çalışmaq lazımdır. Hərbi intizamı möhkəmləndirmək, kollektivlərin yekdil olması şəxsi heyətə rəhbərlik etməyi təkmilləşdirmək aspektində hərbi-psixoloji elmi-praktiki konfranslar keçirilir. Bütün bunlar hərbi-psixoloci problemlərə ümumi maraq yaradır və ona yiyələnməyin müxtəlif formaları fəallaşır.

Bunlarla yanaşı olaraq hərbi-psixologiyaya maraqdakı mativlər və bir çox başqa aspektlər də vardır. Ayrı-ayrı hərbi qulluqçuların fikrinjə psixologiya az qala bütün çətin məsələlərin asanlıqla və tez bir zamanda həllinə qarant ola bilər. Bəzi hallarda bu elmə ehtiyatla yanaşma, ondan müəyyən qədər qorxu da var.

Hərbi psixologiyaya bəzi hallarda inamsız yanaşma hallarını da nəzərdən qaçırmaq lazım deyil. Bəzi hallarda müasir müharibədə insan və texnika münasibətdə səhv anlayışdan və insanın özünün yanlış anlaşılması üzündən böyüyür («Texnika ilə işləmək, lazım gələrsə onu təkmilləşdirmək olar, bəs insanla nə etməli?»). İnamsızlıq, bu elmin imkanlarına inanmamaqdan irəli gəlir («Hərbi psixologiyanı nə qədər istəyirsən öyrən, onsuz da insanlar nə haqda düşündüklərini öyrənə bilməyəjəksən»). Bəzi zabitləri, hərbi psixologiyanın bir elm kimi hələ lazımi səviyyədə inkişaf etmədiyi pərt edir.

Gənclərin çağırışaqədərki hazırlığında gənc çağırışçı keçirilən təlimlərin nəticəsi olaraq gələcək əsgər kimi yuksək hazırlığa və döyüş qabiliyyətinə malik olmağı bacarmalıdır. Bununla bərabər çağırışaqədərki hazırlıq deyərkən birinci növbədə müəyyən nüfuza malik yığılmış təcrübələri, bilikləri, qaydaları normativ olaraq dəyərləndirməyi bacarmalıdırlar. Gələcək əsgər kimi çağırışyaşlı gənclər hərbi təlimlər zamanı mürəkkəb və çoxsəviyyəli sistem şəklində biliklərə yiyələnməyə sey göstərməlidirlər.

***Ədəbiyyat***

1. X.Vəliyev “ Heydər Əliyev Və Ordu Quruculuğu” Bakı 2006.
2. H.Ocaqov, R.Qasımov “Gənclərin Çağırışaqədərki Hazırlıqı2 Bakı 2011.
3. Xalq qazeti 2020-ci il 26 iyun.
4. Azərbaycan Respublikası Müdafiə Nazirliyi Bakı 2015.
5. Azərbaycan Respublikası Qanun vericilik Toplusu2004-cü il N 6 maddə 415.
6. Xalq qazeti 2018-ci il 26 iyun.

DOI:10.30546/gdu.2023.362-365

## ОБУЧЕНИЕ СТРУКТУРЕ ВОЕННОЙ АКТИВНОСТИ МОЛОДЁЖИ В ДОПРИЗЫВНОЙ ПОДГОТОВКИ

***Мамедова Махнур Кафар кызы, Амирасланов Сархан Наил оглы***

***Резюме***

Обучение военной психологии со стороны офицерского состава демонстрирует прямую связь работы офицерского состава с личным персоналом. Как известно, именно психологические факторы лежат в основе управления, воспитания и обучения военного коллектива. Эта проблема также направлена на повышения уровня военного управления всего командного состава.

## THE INSTRUCTION OF STRUCTURE MILITARY ACTIVATION YOUTH IN PRE-CONSCRIPT PREPARATION

***Mamedova Makhnur Kafar, Amiraslanov Sarxan Nail***

***Summary***

The teaching of military psychology, structure of activation by officer personal demonstrate the straight connection working officer personal with military. As you know these psychological facts very important conduct, training and teaching of military collective.

***Rəyçi: Dos Hüseynzadə Zaur***

***Fiziki tərbiyəvə, çağırışaqədərki hazırlıq və mülki müdafiə kafafedrasının 11 aprel 2023-cü il tarixli iclasın 10 saylı protokolu***

***Daxil olma tarixi 14 aprel 2023-cü il***

DOI:10.30546/gdu.2023.12

*Çapa verildiyi tarix 26.09.2023*
*Çap vərəqi: 20,8 ç.v. Tiraj :300 ədəd*
*Gəncə Dövlət Universitetinin nəşriyyatı*
*Ünvan: Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429*
*E-mail:* ***elm@gdu.edu.az,*** *(+99422) 266 01 88*